


# atb360 mobil bankçılıq istifadə şərtləri və qaydaları

Hazırki sənəd "Azər-Türk Bank" ASC tərəfindən bankın müştərisinə (bundan sonra "istifadəçi") göstərdiyi Mobil Bankçılıq xidmətinin istifadə şərtlərini və qaydalarını (bundan sonra "Şərtlər") müəyyən edir. İstifadəçisi Mobil Bankçılıq xidmətlərindən istifadə etməklə hazırki şərtlərə və qaydalara əməl etməyi öz öhdəsinə götürür. Bu sənədlə bağlı yaranan hər hansı sual "Azər-Türk Bank" ASC-nin "Zəng Mərkəzi" ilə əlaqə saxlanılmaqla və ya banka rəsmi müraciət etməklə cavablandırıla bilər.

## ANLAYIŞLAR

**Bank** "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin baş ofisi, filialları və şöbələri

**İstifadəçi** Bank əməliyyatların həyata keçirilməsi məqsədilə Mobil Bankçılıq xidmətinə qoşulan fiziki şəxs

**Mobil Bankçılıq** mobil tətbiq vasitəsi ilə (şifrədən və Şərtlərdə müəyyən olunmuş hallarda gücləndirilmiş elektron imzadan istifadə etməklə) Şərtlərdə nəzərdə tutulmuş bank hesablarını idarə edən və İstifadəçiyə müəyyən əməliyyatları məsafədən həyata keçirmək imkanı verən xidmət. Mobil Bankçılıq yalnız mobil (bütün mobil operatorlarının abonentləri/ istifadəçiləri tərəfindən istifadə oluna bilər) cihazlarda (IOS və Android platformalarını dəstəkləyən) istifadə oluna bilər

**Tarif** Mobil Bankçılıq sistemindən istifadə etməklə göstərilən xidmətlər üzrə Bank tərəfindən müəyyən edilmiş komissiyalar və xidmət haqlarına dair məlumatı özündə əks etdirən sənəd

**Giriş adı** Müştərinin sistem tərəfindən tanınması məqsədilə sistemdə müştərinin qeydə alındığı ad

**Şifrə** İstifadəçinin sistemdə identifikasiyasının keçirilməsi məqsədilə sistemə daxil olan xüsusi kod. Bu kod özündə hərflər, rəqəmlər, simvollar ehtiva edə bilər.

**Proqram təminatı** Mobil cihazlarda istifadə üçün yaradılan və məlumatı emal etmək imkanını təmin edən xüsusi proqram və ya proqram toplusu

**İnternet provayder** Internet şəbəkəsinə çıxış/girişi və İnternet xidmətlərindən yararlanmanı təmin edən təşkilat

**Sessiya** Hər hansı istifadəçinin daxil olandan sonra müəyyən vaxt ərzində fəaliyyəti

**Səhifə** Kompüter proqramının yaratdığı, daxil olunan və əldə olunan məlumatların müştəri tərəfindən izlənilməsini mümkün edən xüsusi vizual çərçivə

| | |
|---|---|
| **Keçid linki (hyperlink)** | Bir proqramdan proqram daxili və ya proqram xarici resurs və ya mənbələrə birbaşa keçidi təmin edən link |
| **Əqli mülkiyyət** | Müəlliflik hüququnun obyekti olan əsərlərə, inteqral sxem topologiyalarına, məlumat toplularına, ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə olan mülkiyyət hüquqları |
| **Əmtəə nişanı** | Hüquqi cəhətdən qorunan firma adı, firma nişanı, əmtəə nümunəsi və ya onların əlaqələndirilməsidir, başqa sözlə müəyyən firmanın əmtəələrinin digər firmanın məlumatlarından fərqləndirmək üçün xidmət göstərən müəyyən edilmiş qaydada qeydiyyatdan keçən nişandır (logo, işarə, əlamət) |
| **Müəllif hüququ** | Müəllifin öz əsərindən istifadə etmək hüququnun 3-cü şəxslərə vermək hüququ. Müəllif hüququ təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış, obyektiv formada mövcud olan elm, ədəbiyyat əsərləri, kompüter proqramları və əməliyyat sistemlərinə şamil edilir. |
| **Logo / Logotip** | Şirkətin firma adının xüsusi rəqəm, hərf və ya digər təsvir formada və ideoqram vasitəsilə təsvir edilməsi. |
| **NFC ödəniş** | Kart oxuyucuları ilə ödəmə cihazları arasında məlumat mübadiləsi aparmaq üçün yaxın sahə rabitəsi (NFC) texnologiyasından istifadə edən təmassız ödəniş formasıdır |
| **Token** | Ödəniş zamanı təhlükəsizliyin təmin olması məqsədilə ödəniş kartının faktiki məlumatları əvəzinə yaradılaraq istifadə edilən unikal rəqəmsal identifikatordur |

## MOBİL BANKÇILIQ XİDMƏTİ VASİTƏSİLƏ GÖSTƏRİLƏN XİDMƏTLƏR VƏ APARILAN ƏMƏLİYYATLAR

Mobil Bankçılıq Xidməti (bundan sonra sistem) vasitəsilə əməliyyatların aparılması Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktları, "Azər-Türk Bank"ASC-nin qayda və prosedurları ilə tənzimlənir.

Sistemdə istifadə edilən xidmətlərin siyahısına İstifadəçiyə öncədən məlumat verilmədən Bank tərəfindən yenidən baxıla və dəyişdirilə bilər.

## TƏHLÜKƏSİZLİK QEYDLƏRİ

İstifadəçi razılaşır ki, sistemə giriş adı və şifrə, mobil telefon nömrəsi haqqında məlumatları gizli saxlayacaq və 3-cü şəxslərlə paylaşmayacaqdır.
İstifadəçi razılaşır ki, təhlükəsizliyin təmin edilməsi üçün istifadə etdiyi giriş şifrəsini mütəmadi olaraq dəyişdirəcəkdir.
Giriş məlumatları, mobil telefon və identifikasiya üçün alət və məlumatlar itdikdə və ya 3-cü

şəxslərin istifadəsində olduqda, istifadəçi bu barədə bankı dərhal məlumatlandırır. Bank istifadəçi tərəfindən məxfiliyin pozulması nəticəsində 3-cü şəxs tərəfindən sistemə giriş və sistemdə aparılan əməliyyatın nəticələri ilə bağlı istifadəçiyə dəyən ziyana görə hər hansı məsuliyyət daşımır.
İstifadəçi razılaşır ki, mobil telefon və ya mobil cihaz identifikasiya üçün istifadə edildikdə, həmin cihazın işlək vəziyyətdə saxlanılması və mobil operator tərəfindən göstərilən xidmətin dayandırılmaması, eyni zamanda Azərbaycan Respublikasında və xaricdə məlumatların qəbulunun təmin olunması üçün lazımi tədbirlər görəcəkdir.
İstifadəçi razılaşır ki, identifikasiya üçün nəzərdə tutulmuş mobil telefon və ya mobil cihaz üçün kodun 3-cü şəxs tərəfindən qəbul edilməsi və İstifadəçinin adından sistemdə istifadə edilməsinə görə Bank məsuliyyət daşımır.
İstifadəçi razılaşır ki, sistemə özünə məxsus mobil cihazdan və ya özünün etibar etdiyi təhlükəsiz vasitədən/cihazdan daxil olacaqdır və sistemə daxil olmanı və əməliyyatları etibarlı yerlərdən və etibarlı şəkildə həyata keçirəcəkdir.
İstifadəçi razılaşır ki, sistemə qoşulma vasitəsində qeyri-qanuni və lisenziya müddəti bitmiş (və ya pozulmuş) proqram təminatından istifadə etmə halları sistemdən istifadənin təhlükəsizliyinə təsir göstərə bilər. İstifadəçi gələcəkdə bu cür halların qarşısın alınmasına yönəlmiş səylərini əsirgəməyəcəkdir.
İstifadəçi sistemə qoşulmaq üçün etibarlı internet provayderin xidmətindən istifadə edəcəkdir.
İstifadəçi sistemə qoşulması üçün özünün seçdiyi internet qoşulmanın davamlılığına və etibarlılığına görə məsuliyyət daşıyır.
İstifadəçi razılaşır ki, mobil xidmət provayderi tərəfindən proqramdan istifadə üçün ödənişlər (rouminq ödənişləri də daxil olmaqla) tətbiq edilə bilər və bu ödənişlər üçün özü məsuliyyət daşıyır.
İstifadəçi sistemdə əməliyyatların aparılmasının təhlükəsizliyinin təmin edilməsi məqsədilə ictimai yerlərdə sistemə daxilolma hallarını minimuma salacaqdır.
İstifadəçi razılaşır ki, eyni vaxtda üç və ya daha çox mobil cihaz istifadə etməklə eyni hesaba daxil olma hallarına yol verməyəcəkdir. Sistemdə sessiyası keçdikdə sistemə mobil cihazdan girişə icazə verilmir.
İstifadəçi razılaşır ki, sistemdə fəaliyyətsiz olma müddəti tətbiq edilir və istifadəçi sistemdə olduqda və bankın müəyyən etdiyi müddət ərzində sistemdə fəaliyyət göstərmədikdə o, avtomatik olaraq sistemdən çıxarılır.
İstifadəçi razılaşır ki, sistemdə öz işini bitirdikdən sonra o sistemdə daxil olduğu pəncərəni, proqramı və s. bağlamalı və sistemdən çıxış prosedurunu tamamlamaqla sistemdən çıxmalıdır.
İstifadəçi razılaşır ki, o, sistemə daxil olduğu və sistemdə olduğu vaxt ərzində bütün təhlükəsizlik tədbirlərinə riayət edəcək.
İstifadəçi razılaşır ki, MDES platforması üzərindən NFC ödənişlərin mobil tətbiqi açmadan aparılmasını aktivləşdirdikdə, eyniləşdirilməmiş əməliyyatların keçməsinə görə Bank məsuliyyət daşımır. NFC ödənişləri qanunvericiliyə uyğun olaraq icazə verilən limit çərçivəsində PİN və ya biometrik yoxlama olmadan, qeyd olunan limiti aşan əməliyyatlar üçün isə PİN və ya biometrik yoxlama ilə aparılacaq.

## MƏXFİLİYİN QORUNMASI BARƏDƏ BƏYANAT

Bank məhsul və xidmətlər üzrə sifarişlərin icra edilməsi səbəbilə istifadəçilərin şəxsi, iş yeri, gəlirləri (əmək haqqı, təqaüd və s.) və kredit öhdəlikləri haqqında məlumatlarının müxtəlif məlumat bazaralarından əldə edilməsi və işlənilməsi, eləcə də məlumatların Azərbaycan Kredit Bürosu Kredit Reyestrində sorğu edilməsi və Elektron Hökümət Portalında qeydiyyatdan keçirilməsi hüququnu özündə saxlayır.

## SİSTEMDƏ MALİYYƏ ƏMƏLİYYATLARININ APARILMASI ŞƏRTLƏRİ

İstifadəçi razılaşır ki, sistemdə maliyyə əməliyyatları benefisiarın rekvizitlərinin dəqiq göstərilməsi şərti ilə istifadəçinin hesabında ödəniş və bankın xidmət haqqının ödənilməsi üçün kifayət qədər vəsait olduqda həyata keçirilə bilər.
İstifadəçi razılaşır ki, qanunvericilikdə müəyyən edilmiş hallarda hesab üzərində həbs qoyulmuşdursa və ya hesab dondurulmuşdursa, bank tərəfindən hesab üzrə maliyyə əməliyyatları aparılmayacaqdır.
İstifadəçi razılaşır ki, sistemdə maliyyə əməliyyatlarının aparılması məhkəmə qətnaməsi ilə və ya digər dövlət orqanları tərəfindən qanunvericilikdə müəyyən edilmiş qaydada dayandırıla bilər.

## TOKENDƏN İSTİFADƏ QAYDALARI

Bir cihaz üçün yaradılmış tokendən digər cihazda istifadə olunmur. Bir ödəniş kartı bir neçə NFC funksiyasına malik cihazda istifadə olunarsa hər biri fərqli tokenə malik olur.

Tokenin yaradılması yalnız kart sahibinin özü tərəfindən həmin cihaz vasitəsilə göndərilən sorğu əsasında mümkündür. Banka müraciətə əsasən (zəng, e-mail, sayt vasitəsilə müraciət və s.) tokenin yaradılması mümkünsüzdür.

Emitent bank üçün token vasitəsilə aparılmış əməliyyat həmin tokenin bağlı olduğu ödəniş kartı ilə aparılmış əməliyyata bərabər hesab olunur

## TOKENDƏN İSTİFADƏ QAYDALARI ÜÇÜN TÖVSİYƏLƏR

Üçüncü şəxslərə məxsus cihazlara ödəniş kartlarının tokenizasiyasının aparılmasına şərait yaratmamaq;
Ödəniş kartlarında olduğu kimi token yaradılmış cihazlar üçüncü şəxslərin istifadəsinə verilməməlidir;
Token aktivləşmiş cihazdan istifadə dayandırıldıqda token həmin cihazdan silinməlidir;
Mobil cihaz itirildikdə, oğurlandıqda və ya üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edildikdə bu barədə 945 telefon nömrəsinə zəng edərək və ya WhatsApp: +994 55 7770 945 nömrəsinə yazılı müraciət edərək Bankı dərhal məlumatlandırmaq;
Cihazdan tokenin silinməsi və ya bloklanması kart sahibi tərəfindən icra edilir. Ödəniş kartı bloklaşdırıldıqda, token bloklaşdırılır. Analoji olaraq ödəniş kartı ləğv edildikdə, token ləğv edilir.
Ödəniş kartında olduğu kimi tokendən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunmalıdır. Token və ya ödəniş kartı bloklaşdırılana qədər token vasitəsilə aparılmış bütün əməliyyatlara görə kart sahibi məsuliyyət daşıyır.
Kart sahibi cihazda biometrik eyniləşdirmə vasitələrindən (barmaq izinə görə avtorizasiya, üzün tanınması və s.) istifadə etdikdə əməliyyatların yerinə yetirilməsi üçün cihazda ikinci şəxsin səlahiyyətinin olmamasına nəzarət etməlidir. Əks halda eyniləşdirmə müştərinin özünə məxsus olaraq qəbul ediləcəkdir.

## XİDMƏT HAQQI

Sistemdə aparılan əməliyyatlara görə Bank tərəfindən xidmət haqqı tutulur. Xidmət haqqı bank əməliyyatlarının növündən asılı olaraq bankın tarifləri ilə müəyyən edilir.
İstifadəçinin apardığı əməliyyata dair xidmət haqqı əməliyyat apardığı hesabından tutulur.

Xidmət haqqının tutulması üçün istifadəçinin hesabında kifayət qədər vəsait olmadıqda, əməliyyatın aparılması sistem tərəfindən dayandırılır. Bu halda istifadəçi hesaba əlavə pul mədaxil edə və ya əməliyyatın aparılmasından imtina edə bilər.

## QEYDİYYATDAN KEÇMƏ QAYDASI

Mobil Bankçılıqda qeydiyyatdan keçmək üçün istifadəçi mobil telefon nömrəsini müvafiq xanaya daxil edir. Bu zaman mobil telefon nömrəsi dedikdə İstifadəçinin qeydiyyat keçməsindən qabaq Bankla hər hansı müqavilənin bağlanması zamanı təqdim edilmiş və dəyişilməmiş mobil telefon nömrəsi nəzərdə tutulur. Qeydiyyatdan keçmək üçün mobil telefon nömrəsi unikal olmalıdır və digər bank müştərisinin məlumatlarında qeyd olunmamalıdır. Mobil nömrə Bankın əməliyyat sistemində aşkar edildikdə, İstifadəçinin mobil telefon nömrəsinə bir dəfə üçün istifadəsi nəzərdə tutulmuş 4 rəqəmli şifrə göndərilir. 4 rəqəmli şifrəni Mobil Bankçılığın müvafiq xanasına daxil etdikdən sonra İstifadəçi Bank tərəfindən emissiya olunan ödəniş kartının 16 rəqəmini, istifadə müddətinin bitmə tarixini və CVV kodu müvafiq xanalara qeyd edir. Daxil edilən məlumatlar düzgün olduğu təqdirdə İstifadəçi Mobil Bankçılığa daxil olmaq və əməliyyatları aparmaq üçün 4 rəqəmli şifrəni özü müəyyən edir və sistemə daxil olur.

## SİSTEMDƏ OLMA MÜDDƏTİ (SESSİYA VAXTI)

İstifadəçi razılaşır ki, sistemdə əməliyyata ayrılan vaxt Bank tərəfindən müəyyən edilir və təhlükəsizlik məqsədləri ilə bağlı olaraq məhdudlaşdırıla bilər. İstifadəçi razılaşır ki, Bank tərəfindən sistemdə fəaliyyətsiz olma müddəti 5 (beş) dəqiqə olaraq müəyyən edilmişdir. Bu müddət ərzində sistemdə fəaliyyət olmazsa, istifadəçi avtomatik olaraq sistemdən çıxarılır. İstifadəçi sistemdə işini davam etmək üçün sistemə yenidən daxil olmalıdır.

## 3-CÜ ŞƏXSİN İSTİFADƏSİ

İstifadəçi sistemdən yalnız özü istifadə etməli və öz adından 3-cü şəxslərin istifadəsinə yol verməməlidir. İstifadəçi 3-cü şəxsə öz adından sistemə daxilolmanı və əməliyyatların aparılmasını həvalə etdikdə, 3-cü şəxs Mobil Bankçılıq Xidmətinin istifadə şərtlərini və qaydalarını avtomatik olaraq qəbul etmiş hesab edilir.
İstifadəçi razılaşır ki, onun adından 3-cü şəxslərin apardığı hər hansı əməliyyatlara və əməliyyatların nəticələrinə görə istifadəçi məsuliyyət daşıyır.

## ƏMƏLİYYATLARIN BANK TƏRƏFİNDƏN DAYANDIRILMASI

İstifadəçi razılaşır ki, qanunvericilikdə müəyyən edilmiş hallarda istifadəçinin Mobil Bankçılıq sistemində apardığı əməliyyatlar bank tərəfindən dayandırıla bilər.

## ÇİRKLİ PULLARIN YUYULMASI HAQQINDA BİLDİRİŞ

İstifadəçi razılaşır ki, aşağıdakı hallarda sistemdə aparılan əməliyyat barədə Bankın şübhəsi yarandıqda, Bank istədiyi vaxt həmin ödəniş tapşırığını dayandıra, təxirə sala və ya onu icra etməkdən imtina edə bilər:

- əməliyyatın aparılması milli və ya xarici qanunvericiliyin tələblərinə zidd olduqda;
- əməliyyat birbaşa və ya dolayı yolla qeyri-qanuni davranışın maliyyələşməsinə xidmət etdikdə və ya onu əhatə edirsə.

İstifadəçi razılaşır ki, Bankın tələbi ilə çirkli pulların yuyulması və ya terrorizmin maliyyələşdirilməsi risklərinin idarə olunması və ya milli və ya xarici qanunvericiliyə riayət olunması məqsədilə bütün lazımi məlumatları Banka  təqdim edəcəkdir;
İstifadəçi razılaşır və qəbul edir ki, Bank istifadəçinin hesabı ilə bağlı olan bütün məlumatları aşağıdakı şəxslərə təqdim edə bilər:

- qanunvericilikdə müəyyən edilmiş qaydada, hər hansı hüquq-mühafizə orqanına, dövlət orqanına və ya məhkəməyə;
- aparılan ödənişlərə dair məlumatları qanunvericiliyin tələblərinə riayət olunması məqsədilə müxbir banka;

İstifadəçi, 3-cü şəxsin adından və ya etibarnamə əsasında fəaliyyət göstərməsi barədə bildirişi Banka təqdim edən anadək, öz adından bu müddəalara riayət etməsinə zəmanət verir.
İstifadəçi razılaşır, bəyan edir və Bankın qarşısında öhdəçilik götürür ki, İstifadəçinin mobilbank tapşırığı ilə Sistemdə aparılan əməliyyatlar çirkli pulların yuyulmasına aid qanunvericilik aktları ilə müəyyən edilmiş  tələbləri pozmayacaq.

## MƏXFİLİK

İstifadəçi təsdiqləyir ki, o özü barədə Banka təqdim etdiyi məlumat tam, dəqiq və düzgündür.
İstifadəçi razılaşır ki, Banka təqdim edilmiş şəxsi məlumatlar sistemdə əməliyyatların aparılması üçün zəruridir və həmin məlumatlar sistemdə əməliyyatların aparılması üçün qanunvericiliklə müəyyən olunmuş hallarda 3-cü şəxslərə açıqlana bilər.
Bank təsdiqləyir ki, İstifadəçinin sistemə daxil etdiyi məlumatlar, sistemdə aparılan əməliyyatlar, istifadəçinin Bankda olan hesabları barədə məlumat Bank sirrinə aiddir. Buna baxmayaraq, qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada İstifadəçinin şəxsi məlumatları, Bankda olan hesabları və sistemdə aparılan əməliyyatları haqqında məlumatlar  qanunvericiliklə müəyyən olunmuş hallarda 3-cü şəxslərə təqdim edilə bilər.
İstifadəçi razılaşır ki, İstifadəçinin Mobil bankçılıqdan istifadəsi zamanı yarana biləcək texniki problemlərinin aradan qaldırılması məqsədilə Bank loq faylları, kukilər və digər texniki vasitələrlə zəruri məlumatları, o cümlədən, İstifadəçinin Mobil bankçılıqdakı fəaliyyətini əks etdirən loqları avtomatik toplayır.
İstifadəçi razılaşır ki, əməkdaşlıq çərçivəsində o Bankın ağlabatan tələbi ilə sistemdə aparılan əməliyyatlarla bağlı açıqlama verməyə hazırdır.

## XİDMƏTLƏRƏ XİTAM VERİLMƏSİ

Bank istifadəçiyə göstərdiyi Mobil Bankçılıq xidmətlərinə istənilən səbəbə görə və istifadəçini xəbərdar etməklə və ya etməməklə xitam verə bilər. Bank həmçinin Mobil Bankçılıq xidmətlərinin göstərilməsini sistemdə yeniliklərin tətbiq edilməsi və ya proqram təminatının yenilənməsi ilə əlaqədar dayandıra bilər. Bank istifadəçini xəbərdar etməməklə göstərdiyi Mobil Bankçılıq xidmətlərinə xitam verdiyi halda ictimai informasiya vasitələri ilə öz qərarı ilə bağlı məlumat verməlidir. Belə halda, xidmətlərə xitam verilməsi rəsmi məlumatın yerləşdirilməsi günündən başlayır.
İstifadəçinin təşəbbüsü ilə Mobil Bankçılıq xidmətinə xitam verildikdə, istifadəçi Bankda olan öz hesabları üzrə əməliyyatları Banka gəlməklə apara bilər.

## MƏSULİYYƏT

Bank İstifadəçinin və ya 3-cü şəxslərin sistemdə apardıqları əməliyyatların nəticəsində İstifadəçiyə dəymiş ziyana və ya zərərə görə (Bankın səhvi nəticəsində dəymiş ziyan istisna olmaqla) hər hansı məsuliyyət daşımır.
Bank aşağıdakı hallarda İstifadəçinin sistemdə apardığı əməliyyatlar ilə əlaqədar yaranan hər hansı itkilərə, ziyan və zərərə, gecikmələrə görə məsuliyyət daşımır:

- əməliyyatın aparılması qanunvericiliyin, Mərkəzi Bankın normativ-hüquqi sənədlərinin, Bankın daxili qaydalarının tələblərinə zidd olduqda;
- əməliyyatla bağlı məlumat natamam və ya məlumatın düzgünlüyü şübhə doğurduğu halda və istifadəçi bu barədə məlumatlı (və ya məlumatlı olmalı idi) olduğu halda;
- istifadəçiyə sistemdə maliyyə əməliyyatının aparılması ilə əlaqədar qanunvericiliyin tələblərinə əsasən 3-cü tərəfdən qadağa qoyulduğu halda;
- sistemdə əməliyyatların aparılması internet provayderin texniki problemlərinin mövcudluğunda irəli gələrək mümkün olmadığı halda;
- fors major halının baş verməsi ilə əlaqədar əməliyyatın aparılması mümkün olmadığı halda.

Bank Sistemə girişin maneəsiz olacağı və ya yubanma, yaxud problem olmayacağına zəmanət vermir,
Sistemlə birlikdə və ya əlaqədə istifadə oluna bilən istənilən üçüncü tərəf proqram təminatı üçün məsuliyyət daşımır.
İstifadəçi razılaşır ki, Bank sistem vasitəsilə göstərdiyi elektron əməliyyatların və xidmətlərin nəticələrinə hər hansı zəmanət vermir.

## TƏZMİNAT

İstifadəçi, Bankı sistem vasitəsilə əldə olunan istənilən nəticələrə görə hər hansı məsuliyyətdən, itkilərdən, ziyan və zərərdən, o cümlədən 3-cü şəxslərin hər hansı iddiasından qorumalıdır.

## DİGƏR SƏHİFƏLƏRƏ KEÇİD LİNKLƏRİ

İstifadəçinin rahatlığı üçün sistemdə 3-cü şəxslərə məxsus və ya 3-cü şəxslər tərəfindən idarə olunan digər internet səhifələrinə, İnternet səhifələrində olan məzmunlara keçid linkləri yerləşdirilə bilər və ya mümkün ola bilər. Bu cür səhifələr və ya məzmunlar Bankın nəzarəti altında deyil və Bank belə məzmunlara və ya belə səhifələrə daxil olmanın nəticələrinə və ya belə internet səhifələri vasitəsilə təqdim edilən mallar və xidmətlərə görə hər hansı məsuliyyət daşımır.

Hər hansı digər səhifələrə və ya məzmunlara keçid linklərinin sistemdə yerləşdirilməsi belə səhifələrə və ya məzmunlara keçidin etibarlı və ya münasib olduğunun təsdiqi deyil, bununla da istifadəçi razılaşır ki belə səhifələrə və ya məzmunlara istifadəçinin daxil olması tamamilə onun öz məsuliyyətinə aid edilir.

## ƏQLİ MÜLKİYYƏT HÜQUQLARI

İstifadəçi razılaşır ki, sistemə və sistemin məzmununa bütün əqli mülkiyyət hüquqları Banka məxsusdur.
Sistemin məzmununda olan hər hansı hissə və ya hissələr Bankın yazılı razılığı olmadan təkrar istifadə üçün 3-cü şəxslərə ötürülə, göstərilə, yayımlana, keçid linki ilə yönəldilə, göndərilə, uyğunlaşdırıla və ya törəmə işinin yaradılması məqsədilə yenilənə və ya digər kommersiya məqsədi ilə istifadə üçün hər hansı vasitənin köməyi ilə və ya üslubda, və ya yazılmış məlumatın əldə olunmasını mümkün edən cihaza gələcəkdə istifadə edilməsi məqsədilə köçürülə bilməz. İstifadəçi yalnız öz şəxsi və qeyri-kommersiya məqsədləri üçün Sistemin məzmunu ilə tanış ola bilər, məzmunu çap və ya istifadə edə bilər, o şərtlə ki istifadəçi məzmunda hər hansı dəyişmələr etməyəcək və bütün əqli mülkiyyət və müəllif hüququna dair nişanları toxunulmaz olaraq saxlayacaqdır.
Sistemdə istifadə olunan və yerləşdirilən əmtəə nişanı və logo ("TradeMark") Bankın qeydə alınmış Əmtəə nişanıdır.
Sistemdə yerləşdirilən hər hansı məzmun, lisenziya və ya Əmtəə nişanı birbaşa, dolayı və ya isbat edilə bilinməyən digər formada Bankın yazılı icazəsi olmadan istifadə edilə bilən kimi şərh edilə bilməz.

## XİDMƏTLƏRƏ ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR

Bankın Mobil Bankçılıq Xidmətində etdiyi hər hansı yeniliklər və dəyişikliklər Mobil Bankçılıq Xidmətinin tərkib hissəsidir və istifadəçi yalnız onları qəbul etdikdə bankın elektron xidmətlərindən istifadə edə bilər. Bank Mobil Bankçılıq Xidmətinə edilən dəyişikliklər, eləcə də sistemə yeni xidmətlərin (bank məhsullarının) əlavə edilməsi ilə əlaqədar İstifadəçini məlumatlandırır. İstifadəçi, hər hansı yeniliklərin sistemə daxil olması barədə məlumatı Mobil Bankçılıq Xidmətində olan poçt qutusuna daxil olan bildiriş vasitəsilə əldə edir.
Qanunvericiliklə Bankın Mobil Bankçılıq Xidmətinin istifadə şərtləri və qaydalarının müddəaları arasında hər hansı ziddiyyət yarandıqda, Mobil Bankçılıq xidmətindən istifadə şərtləri və qaydalarına müvafiq dəyişikliklər edilənə kimi qanunvericiliyin müddəaları tətbiq edilir.

## "Azər-Türk Bank" ASC

Bakı şəhəri, AZ1078
C.Məmmədquluzadə küç. 85; 192/193
Tel: 945
WhatsApp: (+994 55) 777 09 45
Tel: (+994 12) 404 14 45-49, 51-54
Fax: (+994 12) 599 10 11
E-poçt: atb@atb.az
Sayt: https://atb.az